rüşeymin həyat qabiliyyəti aşağı düşür, ona görə də qırt toyuğun altına 7-8 günlük yumurtalar qoyulmalıdır. Ən yaxşısı isə təzə yumurtalar qoyulmalıdır, onlardan iri, daha yaxşı böyüyən cücələr çıxır.

**Yumurta həddindən artıq nə uzunsov, nə də yumru olmalıdır. Orta ölçülü olmalıdır. Qabığında heç bir qalınlaşma olmamalıdır. Xırda yumurtalardan xırda cücələr çıxır. Belə cücədən əmələ gələn toyuqlar da xırda yumurtalar yumurtlayır (yumurtanın ölçüsü irsən keçir). Çox iri yumurtalar da arzu edilməzdir.**

Təmiz yumurtalar əldə etməkdən ötrü yuvadakı döşənəyi tez-tez dəyişdirmək və quş binasının döşəməsini təmiz saxlamaq lazımdır. Çirkli yumurtaları yumaq olmaz. Ördək yumurtaları istisna təşkil edir, onları ılıq su ilə yumaq olar.

Yumurtanın qabığı sınıq, olmamalıdır, çünki qırt toyuğun altında əzilər və digər yumurtaları da çirkləndirə bilər.

**Qabığın rəngi cins üçün tipik olmalıdır. Yumurtaları güclü iy verən maddələrlə yanaşı saxlamaq olmaz.** Yumurtanı saxlayanda onları şaquli vəziyyətdə qoyurlar, 3 gündən bir onları çevirirlər ki, rüşeym qabığa yapışaraq qurumasın. Yumurtaları istilik cihazlarının yanında saxlamaq olmaz.

Yumurtada hava kamerası (puqa) var. O, təzə yumurtada çox kiçik ölçülüdür, çətinliklə nəzərə çarpır, yumurtanın küt tərəfinin ya mərkəzində, ya da azca yanda olur. Hava kamerası yanda, yaxud iti tərəfdə olan yumurtaları çıxdaş edilməlidir. Uzun müddət saxlanmış yumurtada puqa böyük olur.

**Təzə yumurtanın tərkibi, demək olar ki, şəffaf olur, sarı az görünür. Əgər yumurtanı çevirsək, onda sarı ləng hərəkət edir. Ovoskopiya zamanı daxilində tünd ləkələr, qan laxtaları, yaxud üzüklər görünən yumurtalar cücə çıxarılmasından ötrü yararlı deyil.**

Cücə çıxarılmasından ötrü nəzərdə tutulmuş yumurtaların nəqli zamanı onları yumşaq döşənəkli qutularda yaxud səbətlərdə daşımaq məsləhətdir. Yuvaya qoymaq üçün seçilmiş yumurtalar sərin təxminən 7-12° istilik olan binalarda təmiz səbətdə, yaxud qutuda saxlanmalıdır.

**Niftulla Əzizov,**
*zootexnik*

İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi

"Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti"

Layihə
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.

İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı

Ünvan: Bakı, C.Cabbarlı 40.
Tel/faks 498188, 5967018.

"Kösər" mətbəəsində çap olunmuşdur. Sayı 5000.

Kənd Təsərrüfatı Kreditləri üzrə DÖVLƏT AGENTLİYİ

AQRO - MƏSLƏHƏT QHT

# Qırt toyuqlar cücələri hələ yumurtada olandan sevir



Bakı-2010

Yumurtadan cücə çıxardan qırt toyuğun düzgün seçilməsi çox vacibdir. 2-4 yaşında qırt toyuqlar daha etibarlıdır. Onların sakit və sağlamı seçilməli, qorxaq və həddindən artıq ağırından imtina edilməlidir.

**Əgər toyuq yazda yumurtlayandan sonra bir saat, yaxud daha çox yuvada ləngiyirsə, onda onu qırt toyuq kimi istifadə etmək olar. Bir neçə gündən sonra o, gecə də yuvada qalmağa başlayır. Əgər yuvada çox qalan toyuğu oradan çıxartsaq, o, aralanmıyacaq, yuvanın yanında qalıb qaqqıldayacaq.**

Kürt yatmağa hazır olan qazların və ördəklərin davranışı qırt toyuğunkuna oxşardır. Lakin onlarda xüsusi əlamət də vardır: kürt yatmazdan əvvəl onlar döşündəki və qarınındakı tiftik tükləri yolur və onu yuvaya sərir.

Toyuq, hindtoyuğu və ördək yuvası digər binaya köçürüləndə də yumurtaların üstündə yatır, lakin qaz yumurtaladıqları yuvalarda yumurtaların üstündə yatmağı daha çox xoşlayır. Əgər qazın yumurtaları başqa yerə keçirilərsə, o, yumurtalarının üstündə kürt yatmaqdan imtina edə bilər. Qırt toyuğu yumurta üzərində yatmağa ümumi quş binasında deyil, ayrı binada qoymaq daha yaxşıdır. Yaxud yuvanı saman döşənəkli ayırca yeşikdə yerləşdirmək lazımdır ki, başqa quşlar onu narahat etməsin. Yuvanı həm hündürdə asmaq, həm də döşəmə üzərində düzəltmək olar. Ördək və qaz üçün yuva yalnız döşəmə üzərində düzəldilməlidir.

**Qırt toyuğu hazırlanmış yuvaya adətən axşamlar qoyurlar. Yuvaya əvvəlcə bir neçə bişmiş yumurtala qoyulur.** Əgər qırt toyuq yumurta üzərində bir gecə və sabahısı gün oturarsa, sonrakı günlər (axşam) onu ehtiyatla yuvadan götürür, bişmiş yumurtaları hazırlanmış yumurtalarla dəyişir və toyuğu onların üstünə qoyurlar.

Yuvadan ötrü məftil karkas düzəltmək yaxud onu çubuqlardan hörmək olar; dibi olmayan taxta yaxud faner qutularda qoymaq mümkündür. Yuvanın içərisinə torpaq, yaxud çim qatı, onun üstünə isə küləş yaxud quru ot döşəyirlər. Ördəklər və qazlar yuvaya öz tiftiklərini döşəyir, toyuqlara və hindtoyuğuna isə küləş döşənmiş yuva hazırlanır. Əgər qırt toyuqlar bir neçə başdırsa, onda onları bir-birindən ayırmaq üçün arakəsmələr düzəldirlər. Qırt toyuq yuvadakı yumurtaları dimdiyi və qanadları ilə düzəltməli, qanadlarını açmadan bütün yumurtaların üstünü örtməlidir.

**Yuvanın yanına içərisinin bütöv yaxud iri xırdalanmış dən (arpa, vələmir, qarğıdalı), qum və mineral yem qoyulan üçün ayrıca yem qabları, içində təmiz su olan suvarıcı qoyurlar.**

Yuvanın yanına içində kül və qum olan qutu qoymaq da xeyirlidir ki, qırt toyuq orada eşələnərək "çimə" bilsin. Ördək və qazları istəyəndə sərinlənə bilməsi üçün onların yanına içində su olan ləyənlər qoymaq olar.

Çimmək qırt düşmüş quşlara xeyirdir və yumurtaların nəmləndirilməsindən ötrü vacibdir. Əgər yaxınlıqda su hövzəsi yoxdursa, yaxud su ləyənləri qoymaq mümkün deyilsə, onda qaz və ördək yumurtalarını kürtyatmanın 14-15-ci günündən başlayaraq su ilə isladırlar.

**Xarici əlamətlərinə görə seçilmiş yumurtalara ovoskopda baxırlar. Ovoskop-xırda ölçülü karton yaxud taxta qutudur. Onun içərisinə elektrik lampası qoyulur, divarlarının birində isə yumurta formasında oval deşik açılır.** Yumurtalar nəzərdən keçirildikdə lampa yandırılır, yumurta oval deşiyə yaxınlaşdırılaraq, onun tərkibinə baxılır.

Kürtyatmanın birinci günü quşu narahat etmirlər. Lakin ikinci və sonrakı günlər qırt toyuq gəzintiyə çıxmırsa, onu ehtiyatla yuvadan götürür və gəzintiyə çıxarırlar. İlk günlər qırt toyuq 8-10 dəqiqə gəzintidə olur. Gəzinti vaxtı sonrakı günlər artırılaraq 15-20 dəqiqəyə çatdırılır.

**Qırt toyuq adətən səhərlər yuvadan çıxaraq, gəzintiyə gedir. O, yemləndiyi zaman, yuvanı nəzərdən keçirmək mümkündür. Əgər qırt toyuq yuvanı çirkləndirmişsə, yaxud yumurtanı əzmişsə, onda döşənəyi dəyişdirilməli, əzilmiş yumurtaları götürülməli, qalanları isə təmizlənməlidir. İlıq su ilə yalnız yumurtanın çirklənmiş hissəsini yuyur, lakin onu qurulamırlar ki, qabıqüstü pərdə pozulmasın.**

Kürtyatmanın başlanğıcından 6-10 gün sonra yumurtalar ovoskopda baxılmalı və mayalanmamış yumurtalar kənarlaşdırılmalıdır.

Əgər toyuğun altında mayalanmış rüşeymli yumurtalar az qalmışsa və əgər sizin bir neçə kürt yatan toyuğunuz varsa, bu yumurtaları başqa kürt yatan toyuqların altına paylamaq, kürt toyuğun altına isə yeni yumurtalar partiyası qoymaq olar.

Ovoskopun köməkliyi ilə yumurtalara ilk baxış-toyuq yumurtalarına - 6-7-ci gün, ördək və hindtoyuğu yumurtalarına - 8-ci gün, qaz yumurtalarına - 10-cu gün həyata keçirilir. İkinci baxış - toyuq yumurtalarına 19-cu gün, ördək və hindtoyuğu yumurtalarına 26-cı gün, qaz yumurtalarına 27-ci gün keçirilir. İkinci baxışa, ümumiyyətlə, ehtiyac yoxdur.

Yumurtaları uzun müddət saxladıqda,